# ŞUŞA VƏ ƏTRAF ƏRAZİLƏRİN HÖRÜMÇƏK (ARACHNIDA, ARANEAE) FAUNASININ ÖYRƏNİLMƏSİNƏ DAİR

**Şəfa Xasayeva, Tamara Nuruyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutu, aliyeva_t@mail.ru*

Azərbaycanda bu günədək yaxşı öyrənilən buğumayaqlılar qruplarından biri hörümçəklərdir (*Araneae*). Onların öyrənilməsi nəinki müəyyən nəzəri maraq, həm də böyük praktiki əhəmiyyətə malikdir. Çünki hörümçəklər kənd təsərrüfatı ziyanvericilərinin miqdarının artmasını məhdudlaşdıran mühüm entomofaqlar qrupuna aiddir.

Azərbaycanda hörümçəklər faunası ilk dəfə XIX əsrin sonlarından öyrənilməyə başlanılmışdır. Sonrakı illərdə Azərbaycanın hörümçək faunasına daxil olan növlər haqqında ayrı-ayrı məlumatlar bir sıra təbiətşünasların əsərlərində öz əksini tapmışdır. Ölkəmizdə hörümçəklərin, o cümlədən Şuşa və ətraf ərazilərin hörümçək faunasının daha ətraflı, tam və plana uyğun şəkildə tədqiqi XX əsrin son 20 ilinə (1984-cü ildən başlayaraq) təsadüf edir.

Bu bölgədə ilk araxnoloji tədqiqat P.M.Dunin tərəfindən aparılmışdır. O, 1984-1991-ci illərdə Şuşa, Kəlbəcər, Xankəndi, Xocavənd və Xocalı rayonlarının ərazilərindən 6 fəsiləyə (Atipidae, Dysderidae, Lycosidae, Titanoecidae, Uloboridae, Zodariidae) aid 9 növ hörümçək qeyd etmişdir [1-7]. Bunlardan *Dysdera karabachica* Dunin, 1990, *D.satunini* Dunin, 1990 və *Harpactea azerbajdzhanica* Dunin, 1991 ilk dəfə P.M.Dunin tərəfindən elm üçün yeni növlər olaraq təsvir edilmişdir.

1987-1990-cı illərdə aparılan ikinci tədqiqat A.V.Tanaseviçə məxsusdur. O, Şuşa, Kəlbəcər, Xocalı (Əsgəran qəsəbəsi) və keçmiş Ağdərə rayonu ərazilərində Linyphiidae fəsiləsinə aid 20 növ hörümçək qeyd etmişdir [8,17]. Həmin növlərdən *Centromerus minor* Tanasevitch, 1990, *Mansuphantes ovalis* (Tanasevitch, 1987) və *Tenuiphantes contortus* (Tanasevitch, 1986) A.V.Tanaseviç tərəfindən elm üçün yeni növlər kimi təsvir edilmişdir.

1987-ci ildə R.Eskov Şuşada Theridiidae fəsiləsinə aid *Robertus arundineti* (O.P.Cambridge, 1871) növünü qeyd etmişdir [9].

Həmçinin D.V.Logunov, S.Rakov, S.Heciak, Y.Marusik, S.Koponen və E.F.Hüseynovun elmi əsərlərində Şuşa və ətraf ərazilərin hörümçək faunası haqqında məlumatlara rast gəlinir. Həmin əsərlərdə Şuşa, Kəlbəcər, Xocavənd və Laçın rayonlarının hörümçək faunasına daxil olan 3 fəsiləyə aid 16 növ hörümçək qeyd olunmuşdur [10-16].

Beləliklə, ədəbiyyat materiallarına nəzər saldıqda məlum olur ki, indiyə qədər bu ərazilərdə 11 fəsiləyə aid 46 növ hörümçək qeyd olunmuşdur.

Deyilənlərdən aydın olur ki, Şuşa və ətraf ərazilərdə hörümçəklərin fauna və ekologiyasının öyrənilməsinə dair müntəzəm elmi tədqiqat işləri aparılmamışdır. Hörümçəklərin nəzəri və əməli əhəmiyyətinin, ərazinin araneofaunasının zəif öyrənilməsini nəzərə alsaq, gələcəkdə bu ərazilərdə hörümçəklərin fauna və ekologiyasının tədqiqinə dair işlərin aparılması məqsədəuyğun olar. Bu buğumayaqlıların fauna, sistematika, biologiya və fenologiyasının öyrənilməsi, təbii və mədəni biosenozların aranefaunasının mənşə, formalaşma və inkişafının aydınlaşdırılması tətbiqi zoologiyanın ən aktual məsələlərindəndir.

**Ədəbiyyat:**

**1.** Дунин П.М. Фауна и экология пауков (Aranei) Апшеронского полуострова (Азербайджанская ССР) // Пермь: Фауна и экол. паукообразных, 1984, с. 45-60.

**2.** Дунин П.М. Крибеллятные пауки (Aranei, Cribellatae) Азербайджана // Москва: Энтомологическое обозрение, 1988 а, т. 67, № 1, с. 190-203.

**3.** Дунин П.М. Мигаломорфные пауки (Aranei, Mygalomorphae) Азербайджана // Москва: Зоологический журнал, 1988 б., т. 67, № 8, с. 1245-1248.

**4.** Дунин П.М. Пауки рода *Dysdera* (Aranei, Haplogynae, Dysderidae) фауны Азербайджана // Москва: Зоологический журнал, 1990 а., т. 69, № 6, с. 141-147.

**5.** Дунин П.М. Пауки рода *Harpactea* (Aranei, Haplogynae, Dysderidae) фауны Азербайджана // Москва: Зоологический журнал, 1991 б., т. 70, № 9, с. 76-86.

**6.** Дунин П.М., Захарян, В.А. Новый вид пауков рода *Zodarion* (Aranei, Zodariidae) с Кавказа // Москва: Зоологический журнал, 1991, т. 70, № 10, с.142-144.

**7.** Дунин П.М. Пауки семейства Dysderidae фауны Кавказа (Arachnida, Aranei, Haplogynae) // Arthropoda Selecta, 1992, т. 1, вып. 3, с. 35-76.

**8.** Танасевич А.В. Пауки семейства Linyphiidae фауны Кавказа (Arachnida, Aranei) // Москва: Фауна наземных беспозвоночных Кавказа, 1990, с. 5-114.

**9.** Eskov R. The spider genus Robertus O.Pickard-Cambridge in the USSR, with an analysis of its distribution (Arachnida: Araneae: Theridiidae) // Frankfurt: Senckenbergiana biologica, 1987 b., p. 279-296.

**10.** Guseinov E. F., Marusik Y., Koponen S. Spiders (Arachnida: Aranei) of Azerbaijan 5. Faunistic review of the funnel-web spiders (Agelenidae) with the description of a new genus and species // Arthropoda Selecta, 2005, v. 14, p. 153-177.

**11.** Logunov D. V. The spider genus *Neon* Simon, 1876 (Araneae, Salticidae) in SE Asia, with notes on the genitalia and skin pore structures. *Bulletin of the British Arachnological Society,* 1998a., 11(1): 15-22.

**12.** Logunov D., Guseynov E. Faunistic review of the jumping spiders of Azerbaijan (Aranei, Salticidae), with additional faunistic records from neighbouring Caucasian countries // Arthropoda Selecta, 2001, v. 10, № 3, p. 243-260.

**13.** Logunov D. V. & Hęciak S. *Asianellus*, a new genus of the subfamily Aelurillinae (Araneae: Salticidae). *Entomologica Scandinavica,* 1996, 26(1): 103-117.

**14.**Logunov D., Rakov S. Miscellaneous notes on Middle Asian jumping spiders (Aranei: Salticidae) // Arthropoda Selecta, 1998, v. 7, p. 117-144.

**15.** Mikhailov K. The spider genus *Clubiona* Latreille 1804 in the Caucasus, USSR (Arachnida: Araneae: Clubionidae) // Frankfurt: Senckenbergiana Biologica, 1990 b., v. 70, p. 299-322.

**16.**Rakov S., Logunov D. A critical review of the genus *Heliophanus* C.L. Koch, 1833, of Middle Asia and the Caucasus (Aranei Salticidae) // Arthropoda Selecta, 1997a, v. 5, p. 67-104.

**17.**Tanasevitch A. The linyphiid spiders of the Caucasus, USSR // Frankfurt: Senckenbergiana Biologica, 1987, p. 297-383.